UOT 32:34
https://doi.org/10.30546/25194011.2026.15.03.4076

QƏRBİ AZƏRBAYCAN MƏSƏLƏSİNİN MÜASİR BEYNƏLXALQ SİSTEMDƏ İDEOLOJİ VƏ İNTELLEKTUAL ÖLÇÜLƏRİ

Gülgün QULİYEVA*

Daxil olub: 17 Aprel 2025 | Qəbul edilib: 20 May 2025 | Onlayn nəşr edilib: 18 İyun 2026
Received: 17 April 2025 | Accepted: 20 May 2025 | Published online: 18 June 2026

Açar sözlər: *Qərbi Azərbaycan, milli kimlik, kollektiv yaddaş, ideologiya, intellektual diskurs, beynəlxalq hüquq, insan hüquqları, geri qayıdış hüququ, geosiyasət, identiklik siyasəti, yumşaq güc, qlobal sistem.*

Giriş

Müasir beynəlxalq münasibətlər sistemi ənənəvi güc siyasəti ilə yanaşı, ideoloji, normativ və intellektual faktorların qarşılıqlı təsiri əsasında formalaşan mürəkkəb bir struktur kimi çıxış edir. Qloballaşma, informasiya texnologiyalarının sürətli inkişafı və beynəlxalq hüququn normativ bazasının genişlənməsi nəticəsində artıq beynəlxalq gündəlikdə yer alan məsələlər yalnız hərbi və siyasi prizmadan deyil, həm də ideoloji diskurs və intellektual arqumentasiya vasitəsilə qiymətləndirilir. Bu baxımdan Qərbi Azərbaycan məsələsi müasir beynəlxalq sistemdə çoxölçülü xarakter daşıyaraq həm tarixi yaddaşın, həm də hüquqi və ideoloji yanaşmaların kəsişdiyi mürəkkəb bir problem kimi çıxış edir.

Qərbi Azərbaycan məsələsinin mahiyyəti XIX-XX əsrlərdə baş vermiş siyasi transformasiyalar, etnik proseslər və məcburi köçürmələr fonunda formalaşmışdır. Bu proseslər nəticəsində Azərbaycan türkləri öz tarixi torpaqlarından deportasiya olunmuş, onların maddi-mədəni irsi və tarixi izləri ciddi şəkildə zərər görmüşdür. Bu kontekstdə məsələ təkcə regional tarix çərçivəsində deyil, həm də beynəlxalq hüququn fundamental prinsipləri: insan hüquqları, mülkiyyət hüququ və geri qayıdış hüququ prizmasından aktuallıq qazanır. Xüsusilə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş insan hüquqları sənədləri bu kimi problemlərin beynəlxalq səviyyədə qiymətləndirilməsi üçün əsas normativ çərçivəni müəyyən edir.

Bununla yanaşı, Qərbi Azərbaycan məsələsi müasir dövrdə ideoloji müstəvidə də xüsusi əhəmiyyət kəsb edir. Milli kimlik, kollektiv yaddaş və tarixi ədalət anlayışları bu məsələnin ideoloji əsaslarını təşkil edir. Dövlətlərin və xalqların öz tarixlərinə münasibəti, yaddaş siyasəti və milli narrativlərin formalaşdırılması beynəlxalq müstəvidə siyasi mövqelərin gücləndirilməsində mühüm rol oynayır. Bu baxımdan Qərbi Azərbaycan məsələsi yalnız keçmişin qiymətləndirilməsi deyil, həm də gələcəyin siyasi və ideoloji konturlarının müəyyənləşdirilməsi baxımından strateji əhəmiyyət daşıyır.

İntellektual müstəvidə isə məsələ müxtəlif elmi sahələrin – xüsusilə beynəlxalq münasibətlər, siyasi elmlər, tarix və hüquq elmlərinin tədqiqat obyektinə çevrilmişdir. Müasir akademik diskursda bu problem postmünaqişə reallıqları, etnik münaqişələr, miqrasiya prosesləri və identiklik siyasəti kontekstində təhlil olunur. Bu isə məsələnin yalnız regional deyil, qlobal miqyasda öyrənilməsini zəruri edir. Eyni zamanda, müasir beynəlxalq sistemdə informasiya mühiti və kommunikasiya vasitələri ideoloji təsirin əsas alətlərindən birinə çevrilmişdir. Qərbi Azərbaycan məsələsinin beynəlxalq ictimaiyyətə təqdim olunması, onunla bağlı obyektiv və elmi əsaslandırılmış məlumatların yayılması, müxtəlif platformalarda diskursun formalaşdırılması məsələnin aktuallığını daha da artırır. Bu prosesdə beynəlxalq təşkilatlar, analitik mərkəzlər və akademik institutlar mühüm rol oynayır.

Beləliklə, Qərbi Azərbaycan məsələsinin müasir beynəlxalq sistemdə ideoloji və intellektual ölçülərinin araşdırılması həm elmi, həm də praktiki baxımdan xüsusi aktuallıq kəsb edir. Bu məqalə-

* *siyasi elmlər üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti*
*e-mail:*gulgun2004@mail.ru

nin məqsədi məsələnin ideoloji əsaslarını, intellektual diskursunu və beynəlxalq sistemdə tutduğu yeri kompleks şəkildə təhlil etməkdən ibarətdir. Məqalədə həmçinin bu problemin beynəlxalq hüquq, siyasi nəzəriyyə və geosiyasi reallıqlar kontekstində qiymətləndirilməsi nəzərdə tutulur.

1. İdeoloji ölçü: milli kimlik və tarixi yaddaşın formalaşması

Qərbi Azərbaycan məsələsinin ideoloji ölçüsü milli kimliyin qorunması və tarixi yaddaşın formalaşdırılması ilə sıx bağlıdır. Müasir sosial və siyasi nəzəriyyələrə görə, milli kimlik təkcə etnik mənsubiyyət deyil, həm də ortaq tarix, mədəni irs və kollektiv yaddaş əsasında formalaşan sosial konstruksiyadır. Bu baxımdan Benedikt Anderson milli kimliyi "təsəvvür edilən icma" kimi xarakterizə edərək onun ideoloji mahiyyətini ön plana çıxarır [6]. Eyni zamanda Entoni Smit milli kimliyin formalaşmasında etnosimvolik elementlərin – miflər, yaddaş və tarixi simvolların rolunu xüsusi vurğulayır [20].

Qərbi Azərbaycan kontekstində bu nəzəri yanaşmalar deportasiya və məcburi köçürmə prosesləri nəticəsində formalaşmış kollektiv yaddaşın əhəmiyyətini izah etməyə imkan verir. Tarixi torpaqlardan zorla köçürülmüş əhalinin yaddaşında bu hadisələr yalnız keçmişin faktı kimi deyil, həm də kimliyin əsas komponenti kimi qorunub saxlanılır. Bu isə yaddaşın siyasi və ideoloji funksiyasını gücləndirir. Moris Halbvaks kollektiv yaddaşın sosial çərçivələr daxilində formalaşdığını qeyd edərək göstərir ki, cəmiyyətlər keçmişi öz mövcud sosial və siyasi ehtiyaclarına uyğun şəkildə yenidən qururlar [9].

Bununla yanaşı, yaddaş siyasəti müasir dövlətlərin ideoloji strategiyalarının mühüm tərkib hissəsinə çevrilmişdir. Tarixi hadisələrin interpretasiyası və onların ictimai şüurda təqdim olunma forması milli kimliyin möhkəmləndirilməsinə xidmət edir. Pyer Nora "yaddaş məkanları" konsepsiyası vasitəsilə göstərir ki, tarixi yaddaş konkret simvolik məkanlar və narrativlər üzərindən qorunur və ötürülür [18]. Qərbi Azərbaycan məsələsində bu cür yaddaş elementləri həm maddi (abidələr, toponimlər), həm də qeyri-maddi (folklor, şifahi tarix) formada özünü göstərir.

İdeoloji ölçünün digər mühüm aspekti tarixi ədalət anlayışı ilə bağlıdır. Deportasiya və etnik təmizləmə kimi hadisələr yalnız humanitar problem deyil, həm də normativ və ideoloji müstəvidə qiymətləndirilən məsələlərdir. Bu kontekstdə beynəlxalq hüququn prinsipləri və insan hüquqları diskursu mühüm rol oynayır. Birləşmiş Millətlər Təşkilatı çərçivəsində qəbul edilmiş sənədlər, xüsusilə insan hüquqları və qaçqınların hüquqları ilə bağlı normalar, bu cür tarixi ədalətsizliklərin tanınması və aradan qaldırılması üçün əsas baza yaradır. Beləliklə, Qərbi Azərbaycan məsələsinin ideoloji ölçüsü milli kimlik, kollektiv yaddaş və tarixi ədalət anlayışlarının qarşılıqlı təsiri əsasında formalaşır.

Bu ölçü həm daxili ictimai şüurun formalaşdırılmasına, həm də beynəlxalq müstəvidə məsələnin təqdim olunmasına xidmət edir. Nəticə etibarilə, ideoloji yanaşma bu problemin yalnız tarixi fakt kimi deyil, həm də müasir siyasi və intellektual diskursun ayrılmaz hissəsi kimi dərk olunmasına imkan yaradır.

2. İntellektual ölçü: akademik diskurs və elmi yanaşmalar

Qərbi Azərbaycan məsələsinin intellektual ölçüsü onun müxtəlif elmi sahələr çərçivəsində sistemli və nəzəri əsaslandırılmış şəkildə tədqiq olunmasını əhatə edir. Müasir akademik diskursda bu məsələ yalnız regional münaqişə və ya tarixi hadisə kimi deyil, həm də genişmiqyaslı sosial-siyasi proseslərin tərkib hissəsi kimi analiz olunur. Bu baxımdan beynəlxalq münasibətlər və siyasi elmlər sahələrində formalaşmış nəzəri yanaşmalar mühüm metodoloji baza rolunu oynayır.

Beynəlxalq münasibətlər nəzəriyyələri çərçivəsində məsələ fərqli prizmalar vasitəsilə şərh olunur. Məsələn, realist yanaşmaya görə dövlətlərin davranışı əsasən təhlükəsizlik və güc amilləri ilə müəyyənləşir. Bu istiqamətdə Kennet Volts beynəlxalq sistemin anarxik strukturunu vurğulayaraq etnik münaqişələrin və ərazi problemlərinin dövlətlərin təhlükəsizlik strategiyalarında mühüm yer tutduğunu qeyd edir [24]. Digər tərəfdən, konstruktivist yanaşma sosial və ideoloji faktorları ön plana çıxarır. Aleksandr Vendt dövlətlərin maraq və identikliklərinin sosial olaraq formalaşdığını vurğulayaraq, bu kimi məsələlərin diskurs və ideyalar vasitəsilə izah oluna biləcəyini göstərir [25].

Qərbi Azərbaycan məsələsinin öyrənilməsində tarix elmi xüsusi yer tutur. Tarixi mənbələrin analizi, arxiv materiallarının öyrənilməsi və demoqrafik dəyişikliklərin tədqiqi problemin obyektiv qiymətləndirilməsi üçün vacibdir. Bu kontekstdə Erik Hobsbaum milli ənənələrin və kimliklərin "ixtira olunmuş" elementlərini vurğulayaraq tarixi proseslərin müasir siyasi məqsədlərlə necə əlaqələndirildiyini izah edir [14]. Bu yanaşma Qərbi Azərbaycan məsələsində tarixi narrativlərin formalaşdırılması və interpretasiyası baxımından əhəmiyyətlidir.

Hüquq elmi isə məsələnin normativ qiymətləndirilməsini təmin edir. Deportasiya, məcburi köçürmə və mülkiyyət hüquqları kimi məsələlər beynəlxalq hüququn predmetinə daxildir. Herş Lauterpaxt beynəlxalq hüquqda insan hüquqlarının universallığını vurğulayaraq bu sahədə normativ çərçivənin genişlənməsinə töhfə vermişdir [15]. Bu yanaşma Qərbi Azərbaycan məsələsinin hüquqi əsaslarının formalaşdırılmasında mühüm rol oynayır. Sosioloji yanaşmalar da bu məsələnin intellektual təhlilində xüsusi əhəmiyyət daşıyır. Miqrasiya, identiklik və kollektiv yaddaş kimi anlayışlar bu çərçivədə araşdırılır. Rodjers Brubeyker etniklik və millət anlayışlarını dinamik sosial konstruksiya kimi təhlil edərək göstərir ki, bu kimi problemlər yalnız obyektiv reallıqlar deyil, həm də sosial proseslərin nəticəsidir [7].

Eyni zamanda, müasir akademik diskursda multidissiplinar yanaşma xüsusi önəm kəsb edir. Qərbi Azərbaycan məsələsi yalnız bir elmi sahə ilə məhdudlaşmır, əksinə tarix, hüquq, politologiya və sosiologiyanın kəsişməsində yerləşir. Bu isə problemin daha kompleks və obyektiv şəkildə öyrənilməsinə imkan yaradır.

Akademik tədqiqatlar, beynəlxalq konfranslar və analitik hesabatlar bu məsələnin elmi əsaslandırılmasını gücləndirir və onun beynəlxalq səviyyədə tanınmasına töhfə verir. Beləliklə, Qərbi Azərbaycan məsələsinin intellektual ölçüsü müxtəlif nəzəri yanaşmaların və elmi metodların inteqrasiyası əsasında formalaşır. Bu ölçü problemin yalnız emosional və ideoloji deyil, həm də rasional və elmi əsaslarla təqdim olunmasına imkan yaradır ki, bu da onun beynəlxalq akademik və siyasi diskursda legitimliyini artırır.

3. Beynəlxalq hüquq və normativ çərçivə

Qərbi Azərbaycan məsələsinin müasir beynəlxalq sistemdə təqdim olunması və əsaslandırılması ilk növbədə beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır. Bu çərçivə problemin yalnız siyasi deyil, həm də hüquqi məsələ kimi dəyərləndirilməsinə imkan verir. Müasir beynəlxalq hüquq sistemi fərdlərin və xalqların fundamental hüquqlarını qorumağa yönəlmiş universal prinsiplər üzərində qurulmuşdur ki, bu da deportasiya, məcburi köçürmə və mülkiyyət hüquqlarının pozulması kimi halların hüquqi qiymətləndirilməsini zəruri edir. Bu kontekstdə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş "İnsan Hüquqları Universal Bəyannaməsi" (1948) mühüm əhəmiyyət daşıyır. Bəyannamənin 13-cü maddəsində hər bir şəxsin öz ölkəsinə qayıtmaq hüququ təsbit edilmişdir, 17-ci maddə isə mülkiyyət hüququnun toxunulmazlığını təmin edir [22]. Bu müddəalar Qərbi Azərbaycan mənşəli məcburi köçkünlərin geri qayıdış və mülkiyyət hüquqları baxımından normativ baza yaradır.

Eyni zamanda, regional hüquqi mexanizmlər də xüsusi əhəmiyyət kəsb edir. Avropa Şurası çərçivəsində qəbul edilmiş "İnsan Hüquqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası" (1950) fərdi hüquqların müdafiəsi üçün effektiv mexanizm təqdim edir. Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsi mülkiyyət hüququnun qorunmasını təmin edir. Bu istiqamətdə Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən qəbul edilmiş qərarlar məcburi köçürmə və mülkiyyət hüquqlarının pozulması hallarında presedent rolunu oynayır.

Qaçqın və məcburi köçkünlərin hüquqları baxımından Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı tərəfindən formalaşdırılmış normativ çərçivə də xüsusi əhəmiyyət daşıyır. 1951-ci il "Qaçqınların Statusu haqqında Konvensiya" və 1967-ci il protokolu qaçqınların hüquqlarını müəyyənləşdirir, onların qorunmasını beynəlxalq hüququn mühüm istiqamətlərindən birinə çevirir (UNHCR, 1951/1967). Bununla yanaşı, məcburi köçkünlərlə bağlı "Daxili köçkünlük üzrə rəhbər prinsiplər" sənədi onların hüquqlarının müdafiəsi və təhlükəsiz geri qayıdışını normativ şəkildə tənzimləyir.

Beynəlxalq hüququn nəzəri əsasları da bu məsələnin dərk olunmasında mühüm rol oynayır. Herş Lauterpaxt insan hüquqlarının beynəlxalq hüququn mərkəzi elementi olduğunu vurğulayaraq fərdlərin hüquqlarının dövlət suverenliyindən üstün tutulmalı olduğunu qeyd edir [16]. Digər tərəfdən, Antonio Kasses müasir beynəlxalq hüquqda humanitar normaların və fərdi hüquqların güclənməsini qeyd edərək bu sahənin dinamik inkişaf etdiyini göstərir [9]. Bununla yanaşı, etnik təmizləmə və məcburi köçürmə halları beynəlxalq cinayət hüququ kontekstində də qiymətləndirilə bilər. Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutu (1998) deportasiya və əhalinin zorla köçürülməsini insanlıq əleyhinə cinayətlər kateqoriyasına daxil edir. Bu isə belə halların yalnız siyasi deyil, həm də cinayət hüquqi məsuliyyət doğurduğunu göstərir.

Beləliklə, Qərbi Azərbaycan məsələsinin beynəlxalq hüquq və normativ çərçivəsi çoxsəviyyəli və kompleks xarakter daşıyır. Universal və regional hüquq normaları, beynəlxalq təşkilatların sənədləri və məhkəmə presedentləri bu məsələnin hüquqi əsaslandırılmasını təmin edir. Nəticə etibarilə, beynəlxalq hüquq bu problemin qlobal səviyyədə tanınması və həlli üçün əsas legitim platforma kimi çıxış edir.

4. Diskurs mübarizəsi və informasiya məkanı

Müasir beynəlxalq sistemdə siyasi və hüquqi məsələlərin taleyi getdikcə daha çox informasiya məkanı və diskurs mübarizəsi çərçivəsində müəyyən olunur. Qərbi Azərbaycan məsələsi də bu baxımdan yalnız faktlar və hüquqi arqumentlər üzərində deyil, həm də onların necə təqdim olunması, hansı narrativlər vasitəsilə izah edilməsi və beynəlxalq ictimaiyyətə necə çatdırılması üzərində qurulan ideoloji mübarizənin tərkib hissəsidir.

İnformasiya əsrində reallıq çox vaxt onun kommunikativ təqdimatı ilə formalaşır. Diskurs anlayışı sosial və siyasi reallıqların dil, ideya və bilik vasitəsilə qurulmasını ifadə edir. Bu baxımdan Mişel Fuko diskursu hakimiyyət və bilik münasibətləri çərçivəsində izah edərək göstərir ki, hansı narrativlərin dominant olması siyasi güc münasibətləri ilə sıx bağlıdır [12]. Bu yanaşma Qərbi Azərbaycan məsələsində müxtəlif tərəflərin öz mövqelərini əsaslandırmaq üçün fərqli diskurslar formalaşdırdığını anlamağa imkan verir. Eyni zamanda, müasir kommunikasiya nəzəriyyələri informasiya məkanında ideoloji təsirin necə həyata keçirildiyini izah edir. Manuel Kastels "şəbəkə cəmiyyəti" konsepsiyası ilə göstərir ki, qlobal informasiya axınları və media platformaları ictimai rəyin formalaşmasında həlledici rol oynayır [19]. Bu kontekstdə Qərbi Azərbaycan məsələsinin beynəlxalq mediada və akademik platformalarda təqdimatı onun qlobal gündəmdə yer tutmasına birbaşa təsir edir.

Diskurs mübarizəsinin əsas alətləri aşağıdakılardır: beynəlxalq media və informasiya agentlikləri, akademik nəşrlər və elmi jurnallar, beynəlxalq konfranslar və forumlar, analitik mərkəzlərin *(think tank)* hesabatları. Bu prosesdə UNESCO kimi qurumların fəaliyyəti də xüsusi əhəmiyyət daşıyır. Xüsusilə mədəni irsin qorunması və tarixi yaddaşın beynəlxalq səviyyədə tanıdılması sahəsində bu təşkilatın proqramları diskursun formalaşmasına təsir göstərir. Bununla yanaşı, rəqəmsal platformaların və sosial medianın rolu da getdikcə artır. İnformasiya texnologiyalarının inkişafı nəticəsində dövlətlər və qeyri-dövlət aktorları öz narrativlərini daha geniş auditoriyaya çatdırmaq imkanı əldə etmişdir. Bu isə diskurs mübarizəsini daha dinamik və rəqabətli edir. Cozef Nay "yumşaq güc" konsepsiyası çərçivəsində göstərir ki, mədəniyyət, ideologiya və informasiya vasitəsilə təsir etmək müasir beynəlxalq münasibətlərdə getdikcə daha böyük əhəmiyyət kəsb edir [19].

Digər tərəfdən, diskurs mübarizəsi dezinformasiya və informasiya manipulyasiyası risklərini də özündə ehtiva edir. Bu baxımdan obyektiv elmi tədqiqatların və etibarlı mənbələrin rolu daha da artır. Akademik dairələrin və beynəlxalq təşkilatların təqdim etdiyi faktlara əsaslanan məlumatlar bu cür risklərin qarşısını almaqda mühüm rol oynayır. Beləliklə, Qərbi Azərbaycan məsələsinin informasiya məkanında təqdimatı və onun ətrafında formalaşan diskurslar problemin beynəlxalq səviyyədə qəbuluna və qiymətləndirilməsinə birbaşa təsir göstərir. Diskurs mübarizəsi bu məsələnin ideoloji və intellektual ölçülərinin ayrılmaz hissəsi olmaqla yanaşı, onun qlobal gündəmdə yerinin müəyyənləşdirilməsində əsas amillərdən biri kimi çıxış edir.

5. Geosiyasi və ideoloji kontekst

Qərbi Azərbaycan məsələsinin müasir beynəlxalq sistemdə mövqeyi yalnız hüquqi və humanitar aspektlərlə məhdudlaşmır, eyni zamanda geniş geosiyasi və ideoloji kontekst çərçivəsində formalaşır. Regionda baş verən siyasi proseslər, böyük güclərin maraqları və beynəlxalq sistemin struktur xüsusiyyətləri bu məsələnin həm aktuallığını, həm də təqdim olunma formasını müəyyənləşdirir. Bu baxımdan məsələ regional dinamika ilə qlobal güc münasibətlərinin kəsişməsində yerləşir.

Geosiyasi yanaşmalar beynəlxalq münasibətlərin əsas hərəkətverici qüvvəsi kimi güc balansını və strateji maraqları ön plana çıxarır. Kennet Volts tərəfindən irəli sürülmüş neorealist nəzəriyyəyə görə, beynəlxalq sistem anarxikdir və dövlətlər öz təhlükəsizliklərini təmin etmək üçün güc siyasətinə əsaslanırlar [24]. Bu kontekstdə etnik münaqişələr və ərazi məsələləri dövlətlərin təhlükəsizlik strategiyalarının ayrılmaz hissəsinə çevrilir. Qərbi Azərbaycan məsələsi də regionda təhlükəsizlik balansı və siyasi sabitliklə birbaşa əlaqəlidir. Digər tərəfdən, geosiyasətin klassik yanaşmaları da bu məsələnin təhlilində əhəmiyyətlidir. Halford Makkinder "Heartland" nəzəriyyəsində Avrasiya məkanının qlobal siyasətdə həlledici rol oynadığını vurğulayır [17]. Bu yanaşma Cənubi Qafqaz regionunun, o cümlədən, Qərbi Azərbaycan məsələsinin yerləşdiyi coğrafiyanın böyük güclərin maraq dairəsində olmasını izah edir.

Eyni istiqamətdə Zbiqnev Bjezinski Avrasiyanı qlobal geosiyasi rəqabətin əsas meydanı kimi qiymətləndirir və region ölkələrinin bu kontekstdə strateji əhəmiyyətini qeyd edir [3]. İdeoloji kontekst isə geosiyasi proseslərin necə izah olunduğunu və əsaslandırıldığını müəyyən edir. Dövlətlər və siyasi aktorlar öz maraqlarını legitimləşdirmək üçün müəyyən ideoloji çərçivələrdən istifadə edirlər. Bu baxımdan Aleksandr Vendt konstruktivist yanaşma ilə göstərir ki, beynəlxalq siyasətdə identiklik və ideyalar maddi güc qədər əhəmiyyətlidir [24]. Qərbi Azərbaycan məsələsində milli kimlik, tarixi yaddaş və ədalət anlayışları ideoloji əsas kimi çıxış edir və bu, məsələnin beynəlxalq diskursda təqdim olunmasına təsir göstərir.

Bununla yanaşı, regional təşkilatlar və beynəlxalq qurumlar da geosiyasi kontekstdə mühüm rol oynayır. Türk Dövlətləri Təşkilatı kimi platformalar regional əməkdaşlığın gücləndirilməsi və ortaq maraqların müdafiəsi baxımından əhəmiyyətlidir. Eyni zamanda Avropa İttifaqı və NATO kimi qurumların regiona dair siyasəti ümumi geosiyasi balansın formalaşmasına təsir göstərir. Enerji və nəqliyyat layihələri də bu kontekstdə xüsusi yer tutur. Cənubi Qafqaz regionu qlobal enerji marşrutlarının mühüm hissəsi olmaqla geoiqtisadi baxımdan strateji əhəmiyyət daşıyır. Bu isə regionda sabitliyin və təhlükəsizliyin qorunmasını beynəlxalq aktorlar üçün prioritet məsələyə çevirir. Nəticə etibarilə, Qərbi Azərbaycan məsələsi yalnız humanitar problem deyil, həm də geniş geosiyasi maraqlar sisteminin tərkib hissəsi kimi çıxış edir. Beləliklə, geosiyasi və ideoloji kontekst Qərbi Azərbaycan məsələsinin beynəlxalq sistemdə yerini və onunla bağlı qərarların qəbul olunma mexanizmlərini müəyyən edən əsas amillərdəndir. Bu kontekstin nəzərə alınması problemin daha real və kompleks şəkildə dərk olunmasına, həmçinin onun həlli istiqamətində daha effektiv strategiyaların formalaşdırılmasına imkan yaradır.

Nəticə

Qərbi Azərbaycan məsələsi müasir beynəlxalq sistemdə yalnız tarixi və siyasi problem deyil, həm də ideoloji və intellektual mübarizə sahəsidir. Bu məsələnin effektiv şəkildə beynəlxalq səviyyədə təqdim olunması üçün: güclü ideoloji baza formalaşdırılmalı, elmi və akademik tədqiqatların miqyası genişləndirilməli, beynəlxalq hüquq mexanizmlərindən aktiv istifadə olunmalıdır. Nəticə etibarilə, məsələnin həlli yalnız siyasi vasitələrlə deyil, həm də ideoloji və intellektual resursların səfərbər olunması ilə mümkündür. Qərbi Azərbaycan məsələsinin müasir beynəlxalq sistemdə ideoloji və intellektual ölçülərinin təhlili göstərir ki, bu problem yalnız tarixi keçmişin mirası deyil, eyni zamanda qlobal siyasi, hüquqi və ideoloji proseslərin ayrılmaz tərkib hissəsidir. Məqalə boyunca aparılan araşdırma sübut edir ki, məsələ çoxölçülü xarakter daşıyır və onun dərk olunması üçün ideoloji narrativlər, akademik yanaşmalar, beynəlxalq hüquq normaları və geosiyasi reallıqların kompleks şəkildə nəzərə alınması vacibdir.

İdeoloji baxımdan Qərbi Azərbaycan məsələsi milli kimlik, kollektiv yaddaş və tarixi ədalət anlayışlarının sintezi üzərində qurulmuşdur. Bu komponentlər yalnız keçmiş hadisələrin xatırlanması

funksiyasını daşımır, həm də müasir dövrdə siyasi mövqelərin və milli strategiyaların formalaşmasına təsir göstərir. Tarixi yaddaşın qorunması və onun institusional səviyyədə təqdim olunması məsələnin həm daxili ictimai şüurda, həm də beynəlxalq müstəvidə aktuallığını təmin edir. İntellektual müstəvidə isə problemin multidissiplinar yanaşma əsasında öyrənilməsi onun daha obyektiv və elmi əsaslarla təqdim olunmasına imkan yaradır. Beynəlxalq münasibətlər, siyasi elmlər, tarix və hüquq elmlərinin inteqrasiyası bu məsələnin müxtəlif aspektlərini əhatə etməyə şərait yaradır. Akademik diskursun gücləndirilməsi, elmi tədqiqatların genişləndirilməsi və beynəlxalq elmi platformalarda müzakirələrin artırılması problemin qlobal səviyyədə tanınmasına mühüm töhfə verə bilər.

Beynəlxalq hüquq və normativ çərçivə isə məsələnin legitimliyini təmin edən əsas sütunlardan biridir. Birləşmiş Millətlər Təşkilatı çərçivəsində qəbul edilmiş prinsiplər, xüsusilə insan hüquqları, geri qayıdış hüququ və mülkiyyət hüququ kimi fundamental normalar bu problemin hüquqi əsasını təşkil edir. Eyni zamanda Avropa İnsan Hüquqları Məhkəməsi kimi məhkəmə institutlarının presedentləri bu kimi halların hüquqi qiymətləndirilməsi və ədalətli həll mexanizmlərinin formalaşdırılması baxımından mühüm rol oynayır. Diskurs mübarizəsi və informasiya məkanı müasir dövrdə məsələnin beynəlxalq səviyyədə qəbuluna birbaşa təsir edən əsas amillərdən birinə çevrilmişdir. Qlobal informasiya axınları şəraitində hansı narrativin dominantlıq qazanması siyasi və ideoloji təsirin mühüm göstəricisidir. Bu baxımdan obyektiv, elmi əsaslandırılmış və sistemli informasiya siyasətinin həyata keçirilməsi zəruridir. UNESCO kimi qurumların mədəni irs və yaddaşın qorunması sahəsində fəaliyyəti də bu diskursun formalaşmasına töhfə verə bilər.

Geosiyasi kontekst isə Qərbi Azərbaycan məsələsinin yalnız regional deyil, həm də qlobal maraqlar sisteminə daxil olduğunu göstərir. Böyük güclərin strateji maraqları, regional təhlükəsizlik məsələləri və enerji layihələri bu problemin beynəlxalq gündəmdə yerini müəyyən edən əsas faktorlardandır. Bu baxımdan məsələni yalnız humanitar və hüquqi aspektlərdə deyil, həm də geosiyasi reallıqlar kontekstində təhlil etmək zəruridir. Bütün bu yanaşmaların sintezi göstərir ki, Qərbi Azərbaycan məsələsinin effektiv həlli yalnız bir istiqamət üzrə deyil, kompleks və sistemli strategiya əsasında mümkündür. Bu strategiya aşağıdakı əsas istiqamətləri əhatə etməlidir: ideoloji baxımdan milli yaddaşın qorunması və gücləndirilməsi, intellektual baxımdan elmi tədqiqatların və akademik diskursun inkişafı, hüquqi baxımdan beynəlxalq mexanizmlərdən aktiv istifadə, informasiya siyasəti baxımından effektiv kommunikasiya strategiyasının qurulması, geosiyasi baxımdan regional və qlobal reallıqların nəzərə alınması. Nəticə etibarilə, Qərbi Azərbaycan məsələsi müasir beynəlxalq sistemdə çoxşaxəli və dinamik bir problem olaraq qalmaqdadır. Onun həlli yalnız siyasi iradə ilə deyil, eyni zamanda ideoloji konsepsiyaların, elmi biliklərin və hüquqi mexanizmlərin qarşılıqlı əlaqəsi əsasında mümkün ola bilər. Bu isə həm milli, həm də beynəlxalq səviyyədə koordinasiyalı və uzunmüddətli yanaşma tələb edir.

ƏDƏBİYYAT

Azərbaycan ədəbiyyatı

1. Əliyev H. Milli ideologiya və dövlətçilik. Bakı: **Azərbaycan** nəşriyyatı, 2001, 120 s.
2. Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-2014). Bakı: **Zərdabi LTD**, 2015, 234 s.
3. Hüseynov T. Müasir beynəlxalq hüquq və insan hüquqları. Bakı: Elm və təhsil, 2020, 45 s.
4. Məmmədov R. Cənubi Qafqazda etnosiyasi proseslər. Bakı: Ləman Nəşriyyat Poloqrafiya, 2019, 43 s.
5. Qasımov M. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı: Adiloğlu, 2018, 56 s.

Xarici ədəbiyyat

6. Anderson B. Imagined Communities: Reflections on the Origin and Spread of Nationalism. London: Verso, 1983, 243 p.
7. Brubaker R. Ethnicity without Groups. Cambridge: Harvard University Press, 2004, 323 p.
8. Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. New York: Basic Books, 1997, 256 p.
9. Cassese A. International Law. Oxford: Oxford University Press, 2005, 154 p.

10. Castells M. The Rise of the Network Society. Oxford: Blackwell, 1996, 625 p.
11. Council of Europe. European Convention on Human Rights. 1950, 34 p.
12. Foucault M. The Archaeology of Knowledge. New York: Pantheon Books, 1972, 346 p.
13. Halbwachs M. On Collective Memory. Chicago: University of Chicago Press, 1992, 463 p.
14. Hobsbawm E. Nations and Nationalism since 1780. Cambridge: Cambridge University Press, 1990, 342p.
15. International Criminal Court. Rome Statute of the International Criminal Court. 1998, 218 p.
16. Lauterpacht H. International Law and Human Rights. London: Stevens & Sons, 1950, 34 p.
17. Mackinder H. The Geographical Pivot of History. The Geographical Journal, 1904, 74 p.
18. Nora P. Between Memory and History: Les Lieux de Mémoire. Representations, No. 26, 1989, 34 p.
19. Nye J. Soft Power: The Means to Success in World Politics. New York: PublicAffairs, 2004, 345 p.
20. Smith A. D. National Identity. Reno: University of Nevada Press, 1991, 45 p.
21. UNESCO. Convention Concerning the Protection of the World Cultural and Natural Heritage. 1972, 234 p.
22. United Nations. Universal Declaration of Human Rights. 1948, 12 p.
23. United Nations High Commissioner for Refugees. Convention Relating to the Status of Refugees. 1951, 46 p.
24. Waltz K. Theory of International Politics. New York: McGraw-Hill, 1979, 251 p.
25. Wendt A. Social Theory of International Politics. Cambridge: Cambridge University Press, 1999, 456 p.

Резюме

Гульгун Гулиева

Идеологические и интеллектуальные измерения вопроса западного Азербайджана в современной системе международных отношений

В статье проводится комплексный анализ идеологических и интеллектуальных измерений вопроса Западного Азербайджана в современной системе международных отношений. Утверждается, что данный вопрос является не только результатом исторических событий, но и важной частью идеологического дискурса, формируемого такими понятиями, как национальная идентичность, коллективная память и историческая справедливость. В этом контексте теоретические подходы таких исследователей, как Benedict Anderson и Anthony D. Smith, используются в качестве ключевой аналитической основы. В исследовании также подчеркивается междисциплинарный характер проблемы в интеллектуальной плоскости, рассматриваемой с позиций International Relations, Political Science, истории и права. Международные правовые нормы, особенно закрепленные в рамках United Nations, формируют нормативную основу для анализа таких прав, как право на возвращение и восстановление собственности. Кроме того, в статье отмечается роль дискурсивной борьбы и информационного пространства в формировании международного восприятия данной проблемы. В условиях современного информационного общества формирование нарративов и механизмы идеологического влияния существенно воздействуют на то, как проблема воспринимается на глобальном уровне. Геополитические факторы, региональная безопасность и интересы крупных держав также рассматриваются как ключевые элементы, определяющие ее место в международной повестке .В заключение делается вывод о том, что эффективное международное представление и решение вопроса Западного Азербайджана требует комплексного подхода, объединяющего идеологические, интеллектуальные, правовые и геополитические измерения, что позволяет рассматривать данную проблему не только в региональном, но и в глобальном контексте.

Ключевые слова: *Западный Азербайджан, национальная идентичность, коллективная память, идеология, международное право, права человека, право на возвращение, дискурсивная борьба, информационное пространство, геополитика, политика идентичности, мягкая сила, глобальная система.*

Summary

Gulgun Guliyeva

The Ideological and Intellectual Dimensions of the Western Azerbaijan Issue in the Modern International System

The article provides a comprehensive analysis of the ideological and intellectual dimensions of the Western Azerbaijan issue within the modern international system. It argues that this issue is not merely the result of historical events but also an integral part of an ideological discourse shaped by concepts such as national identity, collective memory, and historical justice. In this regard, the theoretical frameworks of scholars such as Benedict Anderson and Anthony D. Smith are used as key analytical foundations. The study also emphasizes the multidisciplinary nature of the

issue within the intellectual domain, examining it through the perspectives of International Relations, Political Science, history, and law. International legal norms, particularly those established within the framework of the United Nations, constitute the normative basis for analyzing rights such as return and property restitution. Furthermore, the article highlights the role of discourse struggle and the information space in shaping global perceptions of the issue. In the contemporary information society, the construction of narratives and ideological influence mechanisms significantly affect how the issue is perceived internationally. Geopolitical factors, regional security dynamics, and the interests of major powers are also identified as key determinants of its position on the global agenda. Ultimately, the article concludes that the effective international presentation and resolution of the Western Azerbaijan issue require a comprehensive approach integrating ideological, intellectual, legal, and geopolitical dimensions. This ensures that the problem is understood not only in a regional but also in a global context.

Keywords: *Western Azerbaijan, national identity, collective memory, ideology, intellectual discourse, international law, human rights, right of return, geopolitics, ethnic processes, identity politics, soft power, global system*.

***Rəyçi**: s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızı*